# Dövlət qulluğu ölkənin tərəqqisinə xidmət kürsüsüdür



*Sadəcə olaraq, mənim tapşırıqlarımı yerinə yetirmək lazımdır. Bu tapşırıqlar da çox sadədir – vətəndaşlarla bir yerdə olmaq, daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək. Əgər siz bu tapşırıqlarımı layiqincə yerinə yetirsəniz, həm dövlət sizin işinizdən razı olacaq, həm də vətəndaşlar.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Cənab İlham Əliyev kadrlara yüksək dövlət vəzifələri tapşıran zaman, həmçinin rayonlara yeni icra hakimiyyəti başçıları təyin edərkən yüksək məmurluq örnəklərinin vacibliyini daim önə çəkərək vurğulayıb ki, rəhbər vəzifədə olmaq imtiyaz deyil, məsuliyyət və insanlara xidmət imkanıdır. Məmurlar unutmamalıdır ki, insanların qayğıları ilə yaşamaq onların əsas borcudur. Dövlətin qanunlarına sadiqlik özlüyündə Vətən sevgisinin bir formasıdır.***

Bu, məhz müstəqillik dövrünün reallığıdır. Yetmiş il yaşamış Sovetlər Birliyində isə vəziyyət bambaşqa idi. Dövlət idarəetməsi tam siyasiləşdirilmişdi, vəzifələrə təyinatda idarəetmə təcrübəsi deyil, siyasi mənsubiyyət əsas götürülürdü. Rəhbərlik aparatına düşmək üçün mütləq Sov.İKP üzvü olmalı, sırf bu partiyanın ideologiyasına xidmət etməli idin.

Azərbaycan müstəqillik qazanandan sonra ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində ölkəmizdə müasir dövlət qulluğu sistemi formalaşdırıldı. Ümummilli liderin rəhbərliyi altında hazırlanan və 1995-ci ilin noyabrında qəbul edilən Konstitusiya ilə milli maraqlar əsas götürülməklə, müasir tələblərə cavab verən dövlət idarəçilik prinsipləri təsbit edildi. Sonrakı dövrlərdə ölkəmizdə dövlət qulluğunu tənzimləyən zəruri qanunvericilik bazası formalaşdırıldı və 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanun dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və onların hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir, həyata keçirilən kadr siyasətinin əsas prinsiplərini, məmurların cəmiyyətdəki yerini, onların hüquq və vəzifələrini müəyyənləşdirir. Dövlət orqanlarında təcrübəli və peşəkar məmurlar korpusunun inkişafını stimullaşdırır.

Müstəqil Azərbaycanda müasir dövlət qulluğu sisteminin yaradılmasının ümummilli liderin adı ilə bağlı olduğunu Prezidenti İlham Əliyev iftixarla vurğulamışdır: "Məhz Heydər Əliyevin ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, dövlət nizamı və sabit dövlət idarəçiliyi bərpa edildi, demokratik, hüquqi dövlət quruculuğu prosesi başlandı. Onun rəhbərliyi altında həyata keçirilən idarəçilik fəaliyyəti insanlarımızda dövlətçilik şüurunu gücləndirdi, hakimiyyət və idarəetmə orqanlarının işinə inamı artırdı".

Prezident İlham Əliyev ölkəmizdə uğurlu dövlət idarəetmə siyasətini layiqincə davam etdirir. 2003-cü ildə Azərbaycanda Avropa Birliyinin TASİS Proqramı çərçivəsində dövlət qulluğu sahəsində islahatlara yardım üzrə layihə icra edilib və müvafiq konsepsiya hazırlanıb. Bundan iki il sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb. Komissiyanın əsas fəaliyyət istiqaməti ölkə Konstitusiyasına əsasən vətəndaşların dövlətin idarə olunmasında iştirakı hüququnun həyata keçirilməsi üçün dövlət qulluğuna qəbulun bərabərlik, şəffaflıq və müsabiqə əsasında keçirilməsindən ibarətdir. 2006-cı ildə isə Prezidentin sərəncamı ilə ölkəmizdə Dövlət Qulluqçuları Günü təsis edilib. Xatırladaq ki, həmin gün, yəni iyunun 23-ü BMT Baş Assambleyası tərəfindən də Dövlət Qulluğu Günü elan olunub. Yeni əsrin mühüm bayramları sırasında yer tutan bu gün demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu dəyərləndirmək baxımından böyük önəm daşıyır.

Həmin istiqamətdə həyata keçirilən tədbirlər dövlət məmurlarının məsuliyyətini artırmaqla yanaşı, idarəetmə tələblərinə cavab verən dövlət sisteminin bərqərar edilməsini şərtləndirir. Fərəhli haldır ki, milli dövlət quruculuğu sahəsində Azərbaycanın çağdaş dünya standartlarını nəzərə alan islahatları beynəlxalq ekspertlər tərəfindən də təqdir olunur.

Dövlətimizin başçısı yeni vəzifəyə təyin edilən məmurlara birmənalı şəkildə tapşırır ki, korrupsiyaya və rüşvətxorluğa qarşı dözümlülük sıfır səviyyəsində olmalıdır. Mənfi hallara qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və müsbət nəticələr verir. Bu siyasət şüurlu siyasətdir və kampaniya xarakteri daşımır. Qanun qarşısında hamı bərabərdir, heç kəs toxunulmaz deyil, kimsənin xüsusi imtiyazları yoxdur. Dövlət qulluqçularının əsas vəzifəsi bütün işləri düzgün qurmaq və xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaqdır ki, vətəndaşların dövlətə olan inamı sarsılmasın. Əks təqdirdə vəzifə də, mövqe də, şəxsiyyətin özü də gözdən düşər.

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu bu sahədə çalışanların xidməti davranışlarını tənzimləyir. Dövlətin nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına etimadının yüksəldilməsi, korrupsiyanın və fəaliyyətdə maraqların toqquşmasının qarşısının alınması, bütün qanun və qaydalara riayətin təmin edilməsi kimi müddəaları əsas tutur. Dövlət qulluqçusu ilk növbədə peşəkar və etikalı olmalı, vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək hərəkətlərə yol verməməlidir. Hər bir məmur şah kimi gül çələnglərinin altında kölgələnərək görüş keçirən, məscidə ayaqqabı ilə daxil olan, qapıya pənah gətirən vətəndaşı gəlişinə peşman edən, şəhid valideyninə etinasızlıq göstərən üzdəniraq rəhbər işçilərin acınacaqlı aqibətini özünə görk eləməlidir.

Qanunun ictimai nəzarətlə bağlı maddəsində göstərilir ki, dövlət qulluqçusu dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandıran medianın müəyyən edilmiş hallarda və qaydada doğru-dürüst məlumatlar almasına kömək göstərməlidir. Dönə-dönə şahidi olmuşuq ki, ulu öndər Heydər Əliyev çıxışlarında televiziya vasitəsilə gördüyü hər hansı bir çatışmazlığı misal çəkərək, məmurları danlayıb və nöqsanların təcili aradan qaldırılması barədə qəti tapşırıq verib. Prezident İlham Əliyev də bu baxımdan hər zaman şəxsi nümunə göstərir. Dəfələrlə media seqmentlərinin təsis etdikləri "İlin adamı" və "Mətbuatın dostu" nominasiyalarına layiq görülməsi buna aşkar sübutdur.

Mediaya dəyər verərək, dövlət quruculuğu sahəsindəki uğurları onun vasitəsilə təbliğ etdirən, televiziya, qəzet və saytların ictimailəşdirdiyi nöqsanları operativ aradan qaldırmağa çalışan rəhbər işçilər, nazirlər də çoxdur. Amma gizli deyil ki, özlərinin həmin missiyasına laqeyd yanaşanlar da var, bu isə yolverilməzdir. Təsəvvür edin ki, hansısa hərbi hissədə bölük, taqım komandiri vəzifəsinin etibar olunduğu bir zabit ordu nizamnaməsinə məhəl qoymadan özbaşınalıq edir, tapşırıqları başdansovdu yerinə yetirir və əsgərləri incidir. Bu, son nəticədə həmin dislokasiya yerində kütləvi intizamsızlığa, hətta fərariliyə rəvac verə bilər. Zabit nümunəsi Vətənə xidmətin ən başlıca prinsipi olmalıdır.

"İctimai iştirakçılıq haqqında" Qanuna əsasən bütün mərkəzi və yerli icra hakimiyyətlərinin nəzdində ictimai şuralar yaradılıb. Həmin şuralarda KİV nümayəndələrinin və QHT-lərin təmsil olunması hökumətin fəaliyyətinə ictimai nəzarəti təmin etmək baxımından mühüm önəm daşıyır. Başqa sözlə desək, aşkarlıq, şəffaflıq dövlət qulluğunun başlıca tələblərindəndir.

Dörd il öncə Prezident sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya" təsdiq edilib. Həmin sənəddən məqsəd dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını hər il onlarca qabiliyyətli və perspektivli gənc bitirir. Həm onlar, həm də Türkiyədə və digər ölkələrdə yüksək təhsil almış gənclər sırasından ən layiqliləri dövlət qulluğuna cəlb olunurlar. Eyni zamanda 2016-cı ildə Prezident fərmanı ilə yaradılmış Dövlət İmtahan Mərkəzinin xətti ilə kadrlar seçilir və dövlət qulluğuna qəbul müsabiqələri, vəzifə qrupları üzrə test imtahanları keçirilir. Bütün bunlar dövlət qulluğuna necə ciddi önəm verilməsinin göstəricisidir.

Ölkəmizdə dövlət qulluğunda gender bərabərliyi prinsipinə də lazımınca riayət olunur. İdarəetmədə müxtəliflik və inklüzivlik, cinsi fərqlilikdən azad iş mühitinin yaradılması kimi meyarlar əsas götürülür. Bununla bağlı ötən payız Dövlət İmtahan Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GiZ) birgə təlimləri keçirilib və uğurlara vəsilə olub. Hazırda ölkəmizdə yüksək dövlət vəzifəsi tutan və etimadı doğruldan qadınların sayı yetərli qədərdir.

Dövlətə və xalqa sədaqətlə qulluq edən yüksək əqidəli məmurlar bununla öz vəzifələrini daha da urvatlandırırlar. Onlar öz xidmətləri ilə xalq-dövlət birliyinə sanballı töhfələr verir, təbii olaraq vəzifə pillələri ilə yüksəlir, bu və digər formada layiqli qiymətlərini alırlar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***